# İDMAN

www.azsport.az

Qəzet 1932-ci ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNİN ORQANI

№ 20 (7115) | 28 sentyabr 2021-ci il | Qiyməti 40 qəpik


# Gənclər və İdman Nazirliyi Anım Gününü qeyd edib



***Sentyabrın 27-də Gənclər və İdman Nazirliyi Anım Gününü qeyd edib. Əvvəlcə Anım Günü ilə əlaqədar olaraq, Respublika Stend Atıcılığı üzrə İdman Kompleksində nazir Fərid Qayıbovun iştirakı ilə ağacəkmə aksiyası keçirilib.***

Nazirliyin kollektivi və atıcılıq idmanı üzrə yığma komanda üzvləri kompleksin həyətində ümumilikdə 100 ağac əkiblər.

Ölkə üzrə isə, Gənclər və İdman Nazirliyinin tabeliyində olan 44 idman kompleksi və gənclər evinin ərazisində, şəhidlərin əziz xatirəsinə hörmət əlaməti olaraq, 2907 ağac əkilib.







Anım Günü münasibətilə Gənclər və İdman Nazirliyinin rəhbərliyi və kollektivi, eləcə də gənclər təşkilatlarının və idman ictimaiyyətinin nümayəndələri II Şəhidlər Xiyabanında şəhidlərin məzarlarını ziyarət ediblər. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşərək həlak olmuş qəhrəmanlarımızın məzarları önünə gül-çiçək düzülüb, əziz xatirələri ehtiramla yad edilib.

Anım mərasimi isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının akt zalında keçirilib. Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə əvvəlcə Vətən müharibəsində canını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Gənclər və idman naziri Fərid Qayıbov, ADBTİA-nın rektoru Fuad Hacıyev, Vətən müharibəsi şəhidi Səbuhi Sadıxovun atası Rövşən Sadıxov, II Qarabağ müharibəsi qazisi, ADBTİA-nın magistrantı Elnur Əkbərov və Olimpiya çempionu Namiq Abdullayev çıxış ediblər.

# Fərid Qayıbov idman federasiyaları və qurumlarında görüşlər keçirib



***Gənclər və idman naziri Fərid Qayıbov idman federasiyaları və qurumlarında bir sıra görüşlər keçirib.***

Nazir sentyabrın 14-də Azərbaycan Üzgüçülük Federasiyasının prezidenti Xanlar Fətiyev və Bakı Su İdmanı Sarayının direktoru Elçin Həsənovla görüşüb.

Bakı Su İdmanı Sarayında keçirilən görüşdə komandaların hazırlıq prosesi, federasiyanın fəaliyyəti, görülən işlər, çətinliklər, qarşıda duran vəzifələr barədə nazirə məlumat verilib, fikir mübadiləsi aparılıb. Sonra nazir Fərid Qayıbov Bakı Su İdmanı Sarayının fəaliyyəti və imkanları ilə yaxından tanış olub.

Sentyabrın 15-də nazir Fərid Qayıbov Azərbaycan Cüdo Federasiyasının fəaliyyəti və Bakı Olimpiya Stadionu ilə tanış olub. Federasiya ilə tanışlıq zamanı nazir idmançıların məşq prosesini izləyib, qadın və kişi cüdoçularla görüşərək söhbətlər aparıb, onlar üçün yaradılmış şəraitlə tanış olub.

Azərbaycan Cüdo Federasiyasının vitse-prezidentləri Sadıq Sadıqov, Elnur Məmmədli və baş katibi Elmar Babanlı nazirə federasiyanın fəaliyyəti, yerli və beynəlxalq səviyyəli yarışlara hazırlıq, gənc idmançılarla işin qurulması, çətinliklər, federasiyanın gələcək planları barədə məlumat veriblər. Qeyd olunan məsələlər ətrafında fikir mübadilələri aparılıb.

Daha sonra nazir F.Qayıbov Bakı Olimpiya Stadionuna baxış keçirib. Stadionun direktoru Cavid Qarayev naziri stadionla tanış edib, yaxın vaxtlarda təşkil ediləcək tədbirlərə hazırlığın gedişi barədə məlumat verib.



Sentyabrın 16-da nazir Fərid Qayıbov Vüqar Həşimov Şahmat Akademiyası ilə tanış olub. F.Qayıbov şahmatçılarla görüşərək onların hazırlığı ilə maraqlanıb, akademiyanın yetirmələrinin qazandıqları nailiyyətlərin nümayiş etdirildiyi şahmat muzeyinə baxıb. Daha sonra nazir tanınmış şahmatçının ailə üzvləri ilə görüşüb. Akademiyanın yaranması, fəaliyyəti, gələcək planları və uğurları barədə mərhum qrossmeysterin atası Qasım Həşimov tərəfindən ətraflı məlumat verilib, çətinliklər barədə fikir mübadiləsi aparılıb. Sonda nazir Fərid Qayıbov həmin vaxt Şimali Makedoniyada şahmat üzrə klublararası Avropa kubokunda iştirak ərəfəsində olan Vüqar Həşimov Şahmat Akademiyasının komandasına uğurlar arzulayıb.


səh. 2

# Fərid Qayıbov idman federasiyaları və qurumlarında görüşlər keçirib



(Əvvəli 1-ci səhifədə)

Nazir akademiyanın xatirə kitabına ürək sözlərini yazıb.

Sentyabrın 23-də nazir Fərid Qayıbov Azərbaycan Güləş Federasiyasının fəaliyyəti ilə tanış olub. Federasiya ilə tanışlıq zamanı nazir idmançıların məşq prosesini izləyib, onlar üçün yaradılmış şəraitlə tanış olub. Daha sonra nazir F.Qayıbov federasiyanın maddi-texniki bazasına baxış keçirib. Azərbaycan Güləş Federasiyasının prezident əvəzi, Dünya Güləş Birliyinin Büro üzvü Namiq Əliyev nazirə federasiyanın fəaliyyəti, yerli və beynəlxalq səviyyəli yarışlara hazırlıq, gənc idmançılarla işin qurulması, çətinliklər, federasiyanın gələcək planları barədə məlumat verib. Qeyd olunan məsələlər ətrafında fikir mübadilələri aparılıb. Görüşdə sərbəst güləş üzrə milli komandanın baş məşqçisi Namiq Abdullayev, Bakı Şəhəri Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov və Güləş Federasiyasının baş katibi Orxan Məmmədov iştirak ediblər.



Sentyabrın 27-də Fərid Qayıbov Azərbaycan Atıcılıq Federasiyasının fəaliyyəti ilə tanış olub. Nazir stend və güllə atıcılığı üzrə yığma komandaların üzvləri ilə görüşüb, onların məşq proseslərini izləyib, problemlərini dinləyib.

Azərbaycan Atıcılıq Federasiyasının baş katibi Emin Cəfərov nazirə federasiyanın fəaliyyəti, yerli və beynəlxalq səviyyəli yarışlara hazırlıq, gənc idmançılarla işin qurulması, çətinliklər, federasiyanın gələcək planları barədə məlumat verib. Qeyd olunan məsələlər ətrafında fikir mübadilələri aparılıb.

Görüşdə federasiya İcraiyyə Komitəsinin üzvü Olimpiya çempionu Zemfira Meftahəddinova və güllə atıcılığı üzrə yığma komandanın baş məşqçisi, Olimpiya mükafatçısı İradə Aşumova iştirak ediblər.



Daha sonra Fərid Qayıbov Respublika Stend Atıcılığı üzrə İdman Kompleksinin maddi-texniki bazasına baxış keçirib. Kompleksin şəraiti və fəaliyyəti ilə maraqlanıb.



## Azərbaycan Türk Şurasına üzv ölkələrin gənclər və idman nazirlərinin 5-ci iclasında təmsil olunub



***Daşkənddə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurasının) üzvü olan ölkələrin gənclər və idman nazirlərinin 5-ci iclası keçirilib. Tədbirdə Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbovun rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib.***

İclasda üzv dövlətlərin nazirləri Türk Şurası çərçivəsində əlaqələrin daha da genişləndirilməsi, gənclər və idman sahələrində bir sıra tədbirlərin keçirilməsi, bu sahədə təcrübə mübadiləsinin aparılması və digər məsələləri müzakirə ediblər.

Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov bildirib ki, son illərdə ölkəmiz birinci Gənclər Festivalı, nazirlərin ikinci toplantısı, Gənc Liderlərin birinci Forumu, Gənclər Platformasının ilk Baş Assambleyası, kikboksinq turniri və Universitet İdman Oyunlarına ev sahibliyi edib. Nazir gənclər və idman sahələri üzrə Azərbaycanda qazanılan uğurlar və perspektiv vəzifələrdən danışıb.

Azərbaycanın Vətən müharibəsində qazandığı şanlı Qələbə sayəsində torpaqlarımızın otuz il davam edən işğaldan azad olunmasından da söz açan F.Qayıbov bildirib: Azərbaycan torpaqları Ermənistan tərəfdən 30 ilə yaxın müddətdə işğal altında saxlanılıb. 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi ədalət bərpa olundu və cəmi 44 gün ərzində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Bu möhtəşəm Qələbədə Azərbaycan 3 minə yaxın şəhid verdi. Onların böyük əksəriyyəti gənclər idi. Fürsətdən istifadə edib Türk Şurasının üzvü olan dövlətlərə müharibə dövründə Azərbaycana göstərdikləri mənəvi və siyasi dəstəyə görə təşəkkürümü bildirirəm".

## Azərbaycanın gənclər və idman naziri Türk Şurasının baş katibi ilə görüşüb

***Gənclər və idman naziri Fərid Qayıbov İstanbulda Türk Şurasının mənzil-qərargahını ziyarət edib və baş katib Bağdad Amreyevlə görüşüb.***

Görüş zamanı Özbəkistanda keçirilmiş Türk Şurası gənclər və idman nazirlərinin beşinci iclasında qəbul edilmiş qərarların icrası müzakirə olunub. Gənclər və idman sahəsində əməkdaşlığı genişləndirməyin əhəmiyyətini vurğulayan nazir birgə layihələrin həyata keçirilməsinin önəmini qeyd edib.



Görüşdə Türk Şurası baş katibinin müavini Qismət Gözəlov, layihə əlaqələndiricisi Əli Çivilər, Gənclər və İdman Nazirliyinin sektor müdirləri Fuad Babayev və Kənan Kərimov iştirak ediblər.

## Gənclər və idman naziri MMA döyüşçüsü Nəriman Abbasov ilə görüşüb

***Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycanın "Qəbələ" idman klubunun MMA döyüşçüsü Nəriman Abbasov və məşqçisi Şəhriyar Abbasovla görüşüb.***



Görüşdə idmançımızın tanınmış döyüşçü Həbib Nurməhəmmədovun atası Abdulmanap Nurməhəmmədovun xatirəsinə həsr olunan turnir çərçivəsində rusiyalı Şamil Zavurovla keçirdiyi döyüş barədə fikir mübadiləsi aparılıb.

Nazir Moskvada keçirilən görüşdə birinci raundda nokautla qalib gələrək yüngül çəkidə çempion titulunu qoruyan 27 yaşlı idmançımızı təbrik edib, ona gələcək döyüşlərində uğurlar arzulayıb.

Xatırladaq ki, N.Abbasov karyerası ərzində keçirdiyi 30 döyüşdə 27 qələbə qazanıb.

## Nazir müavini məşqləri izləyib

***Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov karate və stolüstü tennis üzrə yığma komandaların məşq proseslərini izləyib.***



Azərbaycan Milli Karate Federasiyasının təlim-məşq zalında idmançılarla və məşqçilərlə söhbət edən nazir müavini onların qarşılaşdığı məsələlərlə maraqlanıb. Yaxın günlərdə Rusiyaya beynəlxalq yarışa yollanacaq idmançılara uğurlar arzulayıb.

"Şüa" İdman-Sağlamlıq Kompleksində stolüstü tennis üzrə yığma komanda üzvlərinin məşq prosesinə baxış keçirən nazir müavininə idmançıların hazırlığı barədə ətraflı məlumat verilib. İsmayıl İsmayılov qarşıdakı yarışlara hazırlıqla maraqlanıb və idmançılara öz tövsiyələrini verib.

Görüşlərdə nazirliyin İdman Şöbəsinin müdiri Fərid Mansurov da iştirak edib.

## Milli Məclisdə idmançılar və Vətən müharibəsində iştirak etmiş gənclərlə görüş keçirilib



***Sentyabrın 22-də Milli Məclis sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edən idmançılar Nəriman Abbasov, Rəsul Çunayev, məşqçi Şəhriyar Abbasov, habelə Vətən müharibəsinin iştirakçısı olmuş və fəal gənclərlə görüş keçirib.***

Adil Əliyev görüş iştirakçılarını salamlayaraq, onlarla Milli Məclisdə görüşməkdən məmnunluğunu ifadə edib. Bildirib ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirilməsi nəticəsində hər il ölkəmizin gənclərinin istər elmi, istərsə də idman olimpiadalarında qazandıqları uğurlar hər kəsi qürurlandırır. Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin 1969-1982-ci illərdə ölkəmizə rəhbərlik etdiyi dönəmdə ilk dəfə olaraq gənclər və idman sahəsinə xüsusi diqqət yetirilib. Müstəqillik illərində də ulu öndərin hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrdə tərəqqi başladı. Heydər Əliyevin gənclər və idman sahəsini daim diqqət mərkəzində saxlaması bu sahənin yenidən dirçəlməsi ilə nəticələndi. İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinə Prezident təyin edilməsi idman sahəsinin daha dinamik, hərtərəfli inkişafını təmin etdi. Qeyd olunub ki, bu gün ölkəmizdə sağlam Azərbaycan gəncliyinin formalaşması Prezident İlham Əliyevin yürütdüyü siyasətin uğurlu nəticəsidir. Ən mötəbər idman yarışlarında böyük uğurlar əldə edən idmançılarımız bundan sonra da qazandıqları qələbələrin, göstərdikləri yüksək nəticələrin davamlı olması üçün səylərini davam etdirməlidirlər.

Səmimi görüşə görə təşəkkürlərini bildirən iştirakçılar bu tədbiri həm də təmsil etdikləri sahələrə göstərilən diqqətin nümunəsi kimi dəyərləndiriblər.

Adil Əliyev idmançı Nəriman Abbasovun qazandığı qələbənin digər idmançılarımız üçün də stimul olacağını və onların da beynəlxalq yarışlarda hər zaman uğurla iştirak edəcəklərinə əminliyini bildirib.

Sonda iştirakçılara Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanları təqdim edilib.

## Cəlilabadda Vətən müharibəsi şəhidi Famil Ağaşovun xatirəsinə həsr olunmuş futbol turniri keçirilib



***Cəlilabad Olimpiya İdman Kompleksində Vətən müharibəsi şəhidi Famil Ağaşovun xatirəsinə həsr olunmuş futbol turniri keçirilib.***

Turnirdə Rayon Gənclər və İdman İdarəsinin, Cəlilabad Regional Mədəniyyət İdarəsinin rayon üzrə nümayəndəliyinin, Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin, şəhər 3 nömrəli ümumi orta məktəbinin əməkdaşları, şəhidin ailə üzvləri, idmançılar, qazilər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları, əvvəlcə şəhid Famil Ağaşovun məzarını ziyarət edərək, ruhuna dualar oxuyublar.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan turnirin açılış mərasimində çıxış edənlər 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun əsgər və zabitlərinin, o cümlədən şəhid Famil Ağaşovun qəhrəmanlıqlarından danışıblar.

Final görüşündə "Şəfa" və "Ümid" komandaları qarşılaşıblar. Görüşün əsas vaxtı 2:2 hesabı ilə nəticələnib.

Oyunu idarə edən hakimlərin qərarı ilə finalda iştirak edən hər iki komanda qalib elan edilib.

Qaliblərə kubok və hədiyyələr təqdim olunub.

## Aprel döyüşləri şəhidlərinin xatirə turniri keçirilib



***Sentyabrın 17-də Nərimanov rayonunda, Qafur Rəşad küçəsində yerləşən mini futbol stadionunda Nərimanov rayon Gənclər və İdman İdarəsi tərəfindən aprel döyüşləri şəhidləri polkovnik-leytenant Sənan Axundovun, mayor Rasim Məmmədovun, əsgərlər Mahir Mirzəyevin, Fəxrəddin Qurbanlının və Mahir Quliyevin xatirələrinə həsr edilmiş mini futbol turniri keçirilib.***

6 komanda tərkibində 48 nəfər gənc futbolçunun iştirak etdiyi turnirin açılış mərasimində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis müavini Aydın Yusifov, Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov, Nərimanov Rayon Ağsaqqallar Şurasının sədri, Vətən Müharibəsi şəhidi Azad Hümbətovun atası Arif Hümbətov, 45 saylı tam orta məktəbin direktoru, şəhid, polkovnik-leytenant Sənan Axundovun həyat yoldaşı Nəcibə Axundova, şəhid, mayor Rasim Məmmədovun həyat yoldaşı Samirə Məmmədova, qardaşı Şahin Məmmədov, şəhid Mahir Mirzəyevin atası Sabir Mirzəyev, şəhid Fəxrəddin Qurbanlının atası Seyfəddin Qurbanov və digər qonaqlar çıxış ediblər.

Çıxışlardan sonra mini-futbol turnirinə start verilib və gərgin mübarizə nəticəsində 1-ci yeri Məktəb-Lisey Kompleksinin, 2-ci yeri 212 saylı tam orta məktəbin və 3-cü yeri isə 177 saylı tam orta məktəbin komandaları qazanıblar.

Qalib gələn komandalara İdarə tərəfindən müvafiq dərəcəli diplom və medallar, eyni zamanda Aprel döyüşləri şəhidləri polkovnik-leytenant Sənan Axundovun, mayor Rasim Məmmədovun, əsgərlər Mahir Mirzəyevin, Fəxrəddin Qurbanlının və Mahir Quliyevin ailələrinə xatirə diplomu və Azərbaycan Dövlət Bayrağı təqdim edilib.

## Kürdəmirdə şəhidlərin xatirəsinə həsr olunmuş şahmat turniri keçirilib



***Kürdəmir rayon Gənclər və İdman İdarəsinin və Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin birgə təşkilatçılığı ilə sentyabrın 21-22-də ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan igidlərimizin xatirəsinə həsr olunmuş gənclər arasında şahmat üzrə rayon turniri keçirilib.***

Heydər Əliyev parkında açıq havada təşkil olunan turnirdə Kürdəmir Regional "ASAN xidmət" mərkəzinin, rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşları, idman könüllüləri iştirak ediblər. Yarışın açılış mərasimində ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yarışda şahmatçılar iki yaş qrupunda mübarizə aparıblar. Maraqlı və gərgin keçən oyunların nəticələrinə əsasən 16 yaşadək şahmatçılar arasında 1-ci yerə Amin Əzizov, 2-ci yerə Famil Hacıyev, 3-cü yerə isə Adil Haqverdiyev layiq görülüblər. Gənclər arasında keçirilən yarışda 1-ci yeri Pünhan Məmmədov, 2-ci yeri Heydər Tağızadə, 3-cü yeri isə Əlәddin Omarov və Elman Əhmədov tutublar. Qalib gələn gənclərə rayon Gənclər və İdman İdarəsinin diplomları verilib.

## İsmayıllıda Anım Gününə həsr edilmiş yarış keçirilib



***Sentyabrın 23-də İsmayıllı rayon Gənclər və İdman İdarəsi tərəfindən Olimpiya İdman Kompleksində 27 sentyabr - Anım Gününə həsr olunmuş yeniyetmə və gənclər arasında atletika üzrə rayon birinciliyi keçirilib. Tədbirin keçirilməsində əsas məqsəd Vətən müharibəsi şəhidlərinin qəhrəmanlığını idmançılar arasında təbliğ etmək, yeniyetmə və gənc idmançıların vətənpərvərlik ruhunun yüksəldilməsi və atletika idman növünə marağın artırılması təşkil edir.***

Əvvəlcə turnirin açılış mərasimi keçirilib. Tədbirdə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Gənc idmançıları İsmayıllı rayon Gənclər və İdman idarəsinin baş məsləhətçisi Fərhad Qurbanov salamlayaraq qeyd edib ki, Prezident İlham Əliyevin 27 sentyabr - Vətən müharibəsinin başladığı günü Azərbaycan Respublikasında Anım Günü kimi qeyd olunması ilə bağlı Sərəncamı şəhidlərin doğmalarına, şəhid ruhlarına olan ali ehtiramın göstəricisidir. Onların hər biri Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən ərazilərdə dalğalandırmış, ərazi bütövlüyümüz uğrunda canlarını fəda ediblər. Açılış mərasimindən sonra turnirə start verilib. Gərgin keçən idman yarışında Elxan Mirzəzadə birinci, Hüseyn İsayev ikinci və Rauf Yadigarlı üçüncü yerə layiq görülüblər. Qaliblər İsmayıllı rayon Gənclər və İdman idarəsinin diplom və medalları ilə təltif ediliblər.

## Sumqayıtda "Zəfər yolu" yarışı keçirilib



***Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə şahmat üzrə blits birinciliyi keçirilib. Onlayn formatda reallaşan yarışda 12-17 yaşadək oğlan və qızlar iştirak edib.***

44 günlük Vətən müharibəsinə həsr edilmiş və "Zəfər yolu" devizi altında keçirilən yarışa 27 şahmatçı qatılıb. Doqquz turdan ibarət İsveçrə sistemi üzrə təşkil olunmuş birincilikdə qızlar arasında Mədinə İmranlı, Aytac Kərimli, Nuray Yarəliyeva, Leyla Rzalı, Nurtən Nuriyeva ilk üçlükdə qərarlaşıblar.

Oğlanların mübarizəsində isə Hüseyn Əhmədzadə, Uğur İlyaslı, Çingiz Ələsgərov, Musa Təklevi, Ümid Allahverdi və Xasay Dadaşzadə ilk üç yerə sahib olublar.

Yarışın qalib və mükafatçıları Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən fəxri fərman, medal və hədiyyələrlə təltif ediliblər.

# Azərbaycan idmançısı “Pekin-2022” Qış Olimpiya Oyunlarına lisenziya qazanıb




*Yeddi ölkənin idmançıları ”Pekin-2022” Qış Olimpiya Oyunlarında kişi konkisürənlər arasında fərdi proqramda iştirakını təmin ediblər. Həmin idmançılar arasında Azərbaycan təmsilçisi də var.*

Təmsilçimiz Vladimir Litvintsev Almaniyanın Oberstdorf şəhərində Olimpiadaya təsnifat xarakteri daşıyan ”Nebelhorn Trophy” turnirində uğurla çıxış edərək Qış Olimpiya Oyunlarına vəsiqəni təmin edib. İdmançımız yarışda məşqçisi Sergey Rozanovun rəhbərliyi altında mübarizə aparıb.

V.Litvintsevlə yanaşı, ABŞ, Rusiya, Fransa, Koreya Respublikası, Kanada və Avstraliya atletləri də ”Pekin-2022”də iştirak hüququ qazanıblar.

ABŞ və Rusiya Olimpiadaya kişi konkisürənlərin fərdi proqram üzrə yarışlarına 3, Fransa, Koreya Respublikası, Kanada 2, Azərbaycan və Avstraliya isə 1 lisenziya əldə ediblər.

Qeyd edək ki, ”Pekin-2022” Qış Olimpiya Oyunları gələn il fevralın 4-dən 20-dək keçiriləcək.

# Zəfər Gününə həsr edilmiş “Dəmir yumruq” respublika turniri keçirilib



*Zəfər Gününə həsr edilmiş “Dəmir yumruq” respublika turniri keçirilib. Turnirin açılış mərasimində ölkəmizin idman ictimaiyyətinin nümayəndələri, eləcə də, Vətən müharibəsinin qaziləri, şəhid valideynləri iştirak ediblər.*

Tədbirdə əvvəlcə 44 günlük Vətən müharibəsində şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edən Bakı Karate-do Akademiyasının (BKA) prezidenti Vüsal Abdullazadə Azərbaycan xalqının bu günlərdə böyük iftixar hissi və fəxrlə torpaqlarımızda 30 illik erməni işğalına son qoyulmasının, tarixi Qələbənin birinci ildönümünü qeyd etdiyini bildirib.

Şəhid Muxtar Qasımlının atası Əli Qasımov qeyd edib ki, tarixi Qələbə ilə başa çatan Vətən müharibəsi nəticəsində Azərbaycanın yenilməz Ordusu düşməni torpaqlarımızdan qovub, həm də xalqımızın hərb və qürur tarixini yazıb: Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin nümayəndəsi Gündüz Vəliyev bu günlər xalqımızın böyük qürur hissi ilə Qələbənin ildönümünü qeyd etdiyini, torpaqlarımızın azad edilməsi uğrunda canlarından keçən şəhidlərin xatirəsini andığını bildirib, şəhidlərin xatirəsinin hər zaman yaddaşlarda yaşayacağını vurğulayıb.

Sonra Vətən müharibəsində iştirak etmiş qazilərə, şəhid valideynlərinə, eləcə də idman ictimaiyyətinin nümayəndələrinə, turnirlərin qaliblərinə ”Dəmir yumruq” simvolu ilə hazırlanmış xüsusi medal və diplomlar təqdim edilib.

Mərasimin rəsmi hissəsindən sonra nümunəvi çıxışlar nümayiş etdirilib.

Daha sonra turnir yarışlarla davam edib. Yarışın yekunlarına görə, mükafatalayiq yerlər tutan idmançılar ”Dəmir yumruq” simvolu ilə hazırlanmış xüsusi medal və diplomlarla təltif ediliblər.

Qeyd edək ki, sentyabrın 25-də uşaq və yeniyetmələr arasında karate-do idman növü üzrə Bakı İdman Sarayında start götürmüş və Zəfər Gününə həsr edilmiş ”Dəmir yumruq” ikinci açıq respublika turniri Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi, Məktəb İdmanları Federasiyasının dəstəyi və BKA-nın təşkilatçılığı ilə keçirilib.

# “Kəndlərdə idmanı inkişaf etdirək” layihəsi çərçivəsində tədbirlər keçirilib



*AFFA-nın müxtəlif şəhər və rayonların icra hakimiyyətləri ilə birgə təşkil etdiyi ”Kəndlərdə idmanı inkişaf etdirək” layihəsi üzrə tədbirlər davam etdirilir. Növbəti tədbirlər Cəbrayıl, Ağdaş və Gəncədə baş tutub.*

Cəbrayıl rayonunun Cocuq Mərcanlı qəsəbəsində keçirilən tədbirdə AFFA-nın vitse-prezidenti, Azərbaycan Uşaq və Gənclər Futbol Federasiyasının prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, deputatlar Ceyhun Məmmədov, Vüqar Bayramlı və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Ağdaş Rayonunun Qolqəti kəndində baş tutan tədbirə AFFA-nın vitse-prezidenti Rauf Əliyev, deputatlar Cavid Osmanov, Sabir Hacıyev, Ağdaş Rayon Gənclər və İdman idarəsinin rəisi Azad Gözəlov və digər rəsmi şəxslər qatılıblar.

Daha bir belə tədbir Gəncədə keçirilib. Tədbirdən əvvəl Vətən müharibəsi zamanı erməni faşistləri tərəfindən raket atəşinə məruz qalan ərazidə həlak olmuş dinc sakinlərin xatirələri yad edilib. Gəncə şəhərinin Kəpəz rayonundakı Qələbə parkında keçirilmiş tədbirdə AFFA-nın vitse-prezidenti Rauf Əliyev, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, deputat Sabir Hacıyev, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Qeyd edilən üç tədbirdə ümumilikdə 200-dək uşağa, o cümlədən şəhid ailələrinin övladlarına futbola marağın artırılması məqsədilə idman geyimləri və futbol topları verilib.




# Formula 1 Azərbaycan Qran-Prisi iyunun 12-də təşkil olunacaq

Formula 1 üzrə gələn il keçiriləcək dünya çempionatının ilkin təqvimi məlum olub. İlk yarış martın 20-də Bəhreyndə keçiriləcək.

Mövsüm noyabrın 20-də Əbu-Dabidə yekunlaşacaq. Azərbaycan Qran-Prisi isə iyunun 12-də təşkil olunacaq.

Ümumilikdə mövsümdə 23 yarışın keçirilməsi planlaşdırılır.

# XVII Yay Paralimpiya Oyunlarına hazırlıqla əlaqədar qarşıda duran vəzifələr müzakirə edilib



*Sentyabrın 14-də Azərbaycan Milli Paralimpiya Komitəsində (AMPK) yay Paralimpiya idman növləri üzrə baş məşqçilərlə iclas keçirilib.*

Komitənin baş katibi Kamal Məmmədov ilk növbədə ”Tokio-2020” XVI Yay Paralimpiya Oyunlarında uğurlu nəticə göstərmiş idmançıların baş məşqçilərinə qurumun rəhbərliyi adından təbriklərini və minnətdarlığını ifadə edib. Baş katib bundan sonra da onların fəaliyyətindən yüksək nəticələr gözlənildiyini vurğulayıb.

K.Məmmədov bildirib ki, ”Tokio-2020”də komandamızın uğurlu nəticələr əldə etməsinə baxmayaraq, güllə atıcılığı, pauerliftinq, taekvondo, eləcə də lisenziya gözləntisi olan kamandan oxatma və digər idman növlərinin baş məşqçiləri növbəti yarışlara daha ciddi hazırlaşmalı və qarşılarına qoyulan vəzifələri yerinə yetirməlidirlər.

İclasda 2024-cü ildə Parisdə keçiriləcək XVII Yay Paralimpiya Oyunlarına hazırlıqla əlaqədar qarşıda duran vəzifələr geniş müzakirə edilib. Eyni zamanda, baş məşqçilərə yeni idmançıların, o cümlədən Qarabağ qazilərinin cəlb edilməsi, regionlarda fəaliyyətin gücləndirilməsinin vacibliyi bildirilib. Həmçinin baş məşqçilərə tapşırılıb ki, on gün müddətində ”Paris-2024”ə hazırlıq dövrü üçün fəaliyyət proqramı hazırlanıb komitəyə təqdim edilsin.

İclasın nəticəsi olaraq, AMPK-nın prezidenti İlqar Rəhimova ”Paris-2024” XVII Yay Paralimpiya Oyunları ilə əlaqədar hər idman növü üzrə baş məşqçilərin təyin edilməsi ilə bağlı təqdimat verilib.

Komitə rəhbəri təqdimat əsasında idman növləri üzrə komandalara baş məşqçiləri təyin edib. Kişilərdən ibarət cüdo millisinə İbrahim İbrahimov, qadın cüdoçuların yığmasına Ramin İbrahimov, atletika komandasına Oleq Panyutin, üzgüçülük millisinə Alavərdi Culfayev, pauerliftinq komandasına İlqar İbişov, güllə atıcılarına Yusif Abdullayev, kamandan oxatma komandasına İlqar Abbasov, para-taekvondoçuların yığmasına Fərid Tağızadə, qolbol komandasına Zahir Abdullayev, bocciaçılara İlham Məhərrəmov, stolüstü tennisçilərə Ruqiyyə Qubuşova, qılıncoynatma millisinə Asəf Məlikov, para-velosipedçilərin komandasına Amid Həsənquliyev, qış idman növləri üzrə milliyə Məhəmməd İsmayılov təyin ediliblər.

# Azərbaycanın və Çilinin Paralimpiya komitələri əməkdaşlığa başlaya bilər

*Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) baş katibi Kamal Məmmədov Çilinin Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Fidel Coloma ilə görüşüb.*

F.Coloma Azərbaycan komandasının ”Tokio-2020” XVI Yay Paralimpiya Oyunları zamanı əldə etdiyi yüksək nailiyyətlərlə bağlı komitənin baş katibi Kamal Məmmədovu təbrik edib, ölkədə Paralimpiya Hərəkatının yüksək səviyyədə inkişaf etdiyini vurğulayıb.

F.Coloma ölkəsinin də Paralimpiya dəyərlərinə önəm verdiyini bildirib, AMPK ilə Çili Paralimpiya Komitəsi arasında əlaqələrin qurulmasının vacibliyini qeyd edib. O, idman sahəsində müxtəlif proqramlar çərçivəsində birgə əməkdaşlığı dəstəklədiyini vurğulayıb.

Daha sonra tərəflər gələcək əməkdaşlıqla bağlı bir sıra məsələləri müzakirə ediblər.

# "Vüqar Həşimov" klubu Avropa üçüncüsü oldu



**Makedoniyanın Struqa şəhərində kişi şahmatçılar arasında klublararası Avropa kuboku yarışı keçirilib. Azərbaycanı təmsil edən "Vüqar Həşimov" komandası yarışda parlaq qələbəyə imza ataraq Azərbaycanın şahmat tarixində ilk dəfə klublararası Avropa kuboku yarışının bürünc medalını qazanıb.**

Anar Allahverdiyevin kapitan olduğu komandanın heyətində Rauf Məmmədov, ukraynalı Kiril Şevçenko, Vüqar Əsədli, Aydın Süleymanlı, Ülvi Sadıqov, Əhməd Əhmədzadə və Murad İbrahimli çıxış ediblər.

"Vüqar Həşimov" klubu yarışa qələbə ilə başlayıb. Şahmatçılarımız birinci turda İrlandiyanın "Gonzaga" komandasını 4,5:1,5 hesabı ilə məğlub edib. Yığmanın aktivinə qələbəni Aydın Süleymanlı, Murad İbrahimli, Ülvi Sadıqov yazdırıb. Kiril Şevçenko, Vüqar Əsədli, Əhməd Əhmədzadə isə heç-heçə ediblər.

İkinci turda Azərbaycan təmsilçiləri Moldovanın "Perfect" komandasına böyük hesabla (5,5:0,5) qalib gəliblər. Komandamız bu turda da eyni heyətlə çıxış edib və şahmatçılarımızdan yalnız Şevçenko rəqibi ilə heç-heçə edib, digərləri qalib gəliblər.

Üçüncü turda komandamız İsrailin "Beer Sheva" klubuna 2:4 hesabla məğlub olub. Rauf Məmmədov, Vüqar Əsədli, Aydın Süleymanlı və Ülvi Sadıqov görüşlərini bərabərliklə başa vurduqları halda, Kiril Şevçenko və Murad İbrahimli rəqiblərinə yeniliblər.

Dördüncü turda "Vüqar Həşimov" klubu İspaniyanın "Silla" komandası ilə üz-üzə gəlib. Qarşılaşma heç-heçə başa çatıb - 3:3. Kiril Şevçenko turu qələbə ilə başa vurduğu halda, Ülvi Sadıqov rəqibinə məğlub olub. Rauf Məmmədov, Aydın Süleymanlı, Əhməd Əhmədzadə, eləcə də rəqibin heyərində çıxış edən Azərbaycan şahmatçısı Nicat Abbasovla qarşılaşan Vüqar Əsədli heç-heçə ediblər.

Beşinci turda Azərbaycanı təmsil edən klub Fransanın "Asnieres Le Grand Echiquier" komandası üzərində inamlı qələbə qazanıb. Belə ki, şahmatçılarımızdan 5-i (Rauf Məmmədov, Kiril Şevçenko, Ülvi Sadıqov, Əhməd Əhmədzadə, Murad İbrahimli) qarşılaşmasını qələbə ilə başa vurub, yalnız 1 heç-heçə (Aydın Süleymanlı) qeydə alınıb.

Altıncı turda komandamız Sloveniya "Sloven Ruma"sına 4,5:1,5 hesabı ilə qalib gəlib.

Son turda "Vüqar Həşimov" komandası turnirin reytinq favoriti olan və lideri rolunda Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarovun çıxış etdiyi Makedoniya "Alkaloid"i ilə qarşılaşıb. Son üç lövhədə Aydın Süleymanlı, Ülvi Sadıqov və Əhməd Əhmədzadə qələbə qazanıblar. İlk lövhədə Rauf Məmmədov Şəhriyar Məmmədyarovla, sonrakı lövhələrdə isə Kiril Şevçenko və Vüqar Əsədli öz rəqibləri ilə heç-heçə oynayıblar. Nəticədə 4,5:1,5 hesabı ilə qalib gələn "Vüqar Həşimov" klubu xalların sayını 11-ə çatdıraraq 38 komandanın iştirak etdiyi yarışı 3-cü pillədə başa vurub.

"Vüqar Həşimov" komandasının kapitanı Anar Allahverdiyev qitə yarışında iştirak edən şahmatçılarımızın hər birinin gözəl oyun nümayiş etdirdiklərini və bu möhtəşəm qələbənin qazanılması üçün əllərindən gələni etdiklərini bildirib: "Azərbaycan şahmat ölkəsidir və idmançılarımızın əldə etdikləri böyük nailiyyətlər bunu bir daha sübut edir. Şahmatçılarımız yarışa çox yaxşı hazırlaşmışdılar və komandada əhval-ruhiyyə yüksək idi. Hər kəs özünü qələbəyə kökləmişdi. Şahmatçılarımız bu möhtəşəm qələbənin qazanılması üçün əllərindən gələni etdilər".

Yarışda qələbəni Rusiyanın "Mednıy Vsadnik" komandası bayram edib. İkinci yeri isə Çexiyanın "Novi Bor" komandası tutub. Şəhriyar Məmmədyarovlu "Alkaloid" 8-ci, Nicat Abasovlu "Silla" 9-cu yerləri tutublar.

Onu da qeyd edək ki, kubokda müxtəlif klublarda Maqnus Karlsen, Aleksandr Qrişşuk, Pyotr Svidler, Andrey Yesipenko, Sem Şenkland, Daniil Dubov, Pentala Harikrişna və digər bu kimi dünya şahmat ulduzları da çıxış ediblər.

# Londonda "Xarıbülbül" kikboksinq turniri keçirilib

***Britaniya paytaxtında yaşayan azərbaycanlı, keçmiş kikboksçu Hafiz Baxşəliyev tərəfindən "Xarıbülbül" adlı kikboksinq turniri təşkil edilib.***

Yarışda İngiltərə, İtaliya, Çin, Portuqaliya, Braziliya, Fələstin və digər ölkələri təmsil edən 28 idmançı mübarizə aparıb. Azərbaycan təmsilçiləri pandemiya səbəbindən yarışda iştirak edə bilməyiblər.

Son iki görüşdə Britaniya çempionu titulu uğrunda döyüşlər olub.

Turnir müddətində zaldakı monitorlarda İkinci Qarabağ müharibəsinin simvolu olan Xarıbülbül nümayiş etdirilib.

Qeyd edək ki, yarışlar bir neçə ildir "Immortal Champions" təşkilatının rəhbəri Hafiz Baxşəliyev tərəfindən təşkil olunur. Ən son 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Londonda keçirilən yarışlarda azərbaycanlı idmançılar da iştirak etmişdilər.

# MMA döyüşçüsü Nəriman Abbasov növbəti qələbəsini qazanıb

***Azərbaycanın və "Qəbələ" idman klubunun MMA döyüşçüsü Nəriman Abbasov növbəti qələbəsini qazanıb.***



İdmançımız tanınmış döyüşçü Həbib Nurməhəmmədovun atası Abdulmanap Nurməhəmmədovun xatirəsinə həsr olunan turnirdə qüvvəsini sınayıb. Yüngül çəki dərəcəsində "AMC Fight Nights" çempionu olan 27 yaşlı təmsilçimiz titul döyüşündə rusiyalı Şamil Zavurovla qarşılaşıb.

Moskvada təşkil olunan döyüşün taleyini ilk raundda həll edən N.Abbasov texniki nokautla qalib gəlib. İdmançımız bununla da "AMC Fight Nights"ın çempionu titulunu qoruyub .

Bu, Abbasovun karyerasında 30-cu döyüş olub. Yalnız üç dəfə uduzan idmançımız 27-ci qələbəsini qazanıb.

# Cüdoçularımızın Xorvatiyada böyük uğuru



***Xorvatiyanın paytaxtı Zaqrebdə cüdo üzrə Qran-pri turnirində komandamız parlaq nailiyyətə imza atıb.***

Belə ki, Qran-Pri turnirinə qatılan hər iki cüdoçumuz qızıl medal qazanıb. Turnirin ikinci günü mübarizə aparan Hidayət Heydərov (73 kq) İsrail cüdoçusu Yehonatan Elbazı, daha sonra moldovalı Petru Pelivani məğlub edərək dörddəbir finala çıxıb. Bu mərhələdə rumıniyalı Aleksandru Raykuna qalib gələn H.Heydərov yarımfinalda rusiyalı Maxmadbek Maxmadbekovu məğlubiyyətə uğradaraq adını finala yazdırıb. Qızıl medal uğrunda görüşdə moldovalı Viktor Sterpunu məğlub edən cüdoçumuz fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

Turnirdəki digər təmsilçimiz Məmmədəli Mehdiyevin (90 kq) ilk rəqibi Sebastian Oldak olub. Təmsilçimiz polşalı cüdoçunu mübarizədən kənarlaşdırdıqdan sonra növbəti mərhələlərdə avstriyalı Vaqid Borçaşvili və rusiyalı Xusen Xalmurzayevi də məğlub edərək finala vəsiqəni təmin edib. Həlledici qarşılaşmada Gürcüstan idmançısı Luka Maisuradze üzərində qələbə qazanan Məmmədəli Mehdiyev Qran-pri yarışının qızıl medalına sahib olub.

Komandamız bu nəticə ilə 4-cü sırada qərarlaşıb.

Yarışda 35 ölkədən 240-dən çox idmançı mübarizə aparıb.

# Böyük triatlon yenidən Azərbaycana qayıdır

**Böyük triatlon yenidən Azərbaycana qayıdır. Oktyabrın 10-da Pirallahı adasında "IronWinD" adlı turnir keçiriləcək.**



Yarış Gənclər və İdman Nazirliyi və Azərbaycan Triatlon Federasiyasının dəstəyi ilə "Triterra Baku Triathlon Club" tərəfindən keçirilir.

Turnirin iştirakçıları Olimpiya məsafəsində yarışacaqlar. İdmançılar 1,5 kilometr üzməli, 40 kilometr velosiped sürməli və 10 kilometr qaçmalı olacaqlar.

Qeyd edək ki, ölkəmizdə triatlona maraq artmaqdadır. Həvəskar triatlonçular beynəlxalq arenada uğurla çıxış edirlər. Daha çox azərbaycanlı idmançı "Ironman" yarışlarında mübarizə aparırlar. "IronWinD" turniri ölkəmizin ən güclü həvəskar triatlonçularını bir araya gətirə bilər.

# Bodibildinqçilərimiz İspaniyada 2 medal qazanıblar

***İspaniyanın Sevilya şəhərində "Arnold Klassik Avropa" adlı yarış təşkil edilib. Azərbaycan təmsilçiləri turnirdə 2 medal qazanıblar.***

Belə ki, 95 kiloqram çəki dərəcəsində çıxış edən Əliyulla Abbaszadə bütün rəqiblərini qabaqlayaraq nüfuzlu yarışın qalibi adını qazanıb. Təmsilçimiz, həmçinin mütləq kateqoriyada üçüncü olub. Bu medal Azərbaycan bodibildinq idmanı tarixində "Arnold Klassik" yarışlarında qazanılan ilk mükafatdır.

Digər idmançımız Rasim Həsənov isə mens fizik yarışlarında fərqlənərək qızıl medal qazanıb. R.Həsənov mayda İspaniyada təşkil olunan Avropa çempionatında da birinci olmuşdu.

"Arnold Klassik Avropa" yarışı 2011-ci ildən keçirilir. Hər il İspaniyada keçirilən yarış məşhur idmançı Arnold Şvartseneqqerin təşəbbüsü və Beynəlxalq Bodibildinq və Fitness Federasiyasının təşkilatçılığı ilə baş tutur.

# Tamblinqçimiz Tofiq Əliyev Ukraynada gümüş medal qazanıb

***Tamblinqçilərimiz Ukraynanın Odessa şəhərində keçirilmiş ölkə kuboku yarışlarında çıxış ediblər.***

Yarışda Tofiq Əliyev, Adil Hacızadə, Hüseyn Əsədullayev, Bilal Qurbanov, Elnur Məmmədov və Aleksey Karataşov mübarizə aparıblar.

Təmsilçilərimiz arasında ən yaxşı nəticəni Tofiq Əliyev göstərərək yarışda ikinci olub.

# Kiprə yenidən yeni ümidlə



Futbol klublarının builki Avrokubokları əvvəlki illərdən də böyük ümidlərlə başlanıb.

"Qarabağ" qitə klub miqyasında ölkəmiz üçün gətirdiyi yeniliklərə daha birini və ən vacibini əlavə etmək üçün hər bir şansa malikdir. Klub Azərbaycan futbolu tarixində ilk dəfə qrup səddini aşmağa iddialı, buna qadirdir. Başqa sözlə, mövsümün yeni təqvim ilində Bakıda ilk dəfə futbol oyunu müşahidə etmək imkanımız əsassız deyil.

Birinci turda qrupun nəzəri favoritini qəbul edən Ağdam təmsilçisi rəqibindən geri qalmadığını göstərməklə bu ümidlərə əsas da verib. Lakin bir çox rəylərə rəğmən həmin matçla bağlı bir qədər fərqli fikir söyləmək də lazımdır. Əlbəttə, "Bazel"in favorit adı "Qarabağ"ı daha ehtiyatlı olmağa vadar edirdi. Lakin buna qədər isveçrəlilərin oyunu, tərzi, heyəti, ən əsası, hazırlığı ilə bağlı məlumatlar onun dişə çəkilən olduğunu əyani göstərirdi. Bu səbəbdən Azərbaycanın Avropa arenasında yeganə ümidi bu matça daha bir vacib taktiki hazırlıq elementləri ilə çıxa bilərdi.

İlk yarıda oyun və hesab nə qədər qənaətbəxş olsa da, ikincidə "Qarabağ" rəqibin nəinki dişəçəkilən olmasını, həm də iştahın diş altında olmasını əsas götürə bilərdi. Buna bir qədər taktiki çiylik imkan vermədi. Ümumən rəqibin ehtiyatlı olması aşkar idi. Lakin "Qarabağ"ın kəskin hücumlarının qarşısını almaq üçün fəallığını əldən vermir və təzyiqə hazır olduğunu da göstərmək istəyirdi. Bunun əksinə olaraq, "Qarabağ"ın hər hücumu rəqibin məhz ehtiyatlı davranması üzündən zərər çəkə biləcəyi və səhvlərə meyilli olduğu da aşkar görünürdü.

İki hissədən söz açanda, "Qarabağ"ın ilk yarıda arxa və ön plana yönəlmiş oyununda əvvəlki dövrlə müqayisədə irəliləyiş aşkar özünü büruzə verirdi. Andrade ilə Qarayevin mərkəzdə anlaşıqlı oyunu ön planlı futbolçulara geniş meydan verirdi. Məhz onların tam olaraq bu kompozisiyanı tamamlaya bilməməsi "Qarabağ"ın hətta açıq görünən fərqlənmək imkanlarını məhdudlaşdırırdı. Çünki kombinasiyalı oyunların tamamlanması üçün sanki mane olan nəsə vardı. Digər yandan komandanın taktiki iki-üç planlı hazırlığında, oyunun inkişaf tempinə variantlardan istifadə olunmasında, funksional tərtibatda və əvəzetmələrdə də bir o qədər effektiv tətbiqləri görmədik.

Əlbəttə, bütün bunlar irad deyil, əksinə, artıq komandamızın da yüksəlişdə olmasının göstəricisidir. Çünki artıq belə bir şərh yaza biliriksə, deməli, "Qarabağ"ın zəif deyil, məhz orta Avropa futbolu səviyyəsində imkanlarını yüksək qiymətləndiririk. Qarşılaşma ilə bağlı qeydlərimizi də məhz bu səviyyənin hesabı ilə aparırıq.

Əlbəttə, "Qarabağ" üçün bu matçın nəticəsi həttə strateji cəhətdən belə ümidvericidir. Qazanılmış xal bundan sonrakı rəqabətdə nikbin energetikanın təməlidir. Ən əsası, komanda yenidən Kiprə ümidlə yola çıxacaq. Bunun üçün hər bir əsas, imkan, texniki hazırlıq də var. Qalır səfərdə taktiki planların tarazlığı və rəqibin bu təklifin təsiri altına salınması.

*BATI YAR*

**Konfrans liqası.**
**"H" qrupu.**
**1-ci tur**

***"Qarabağ" (Azərbaycan) - "Bazel" (İsveçrə) 0:0***

**16 sentyabr.** Bakı. Olimpiya stadionu.

**Hakimlər:** Erik Lambrexts - Rin Vanızere, Co de Vayrdt - Vim Smet (Belçika).

**Sarı vərəqə:** Kadi, 61//Bürger, 26, Kasami, 51, Millar, 90+2.

**"Qarabağ":** Şahruddin Məhəmmədəliyev, Maksim Medvedev (kap.), Kevin Medina, Abbas Hüseynov, Toral Bayramov, Qara Qarayev, Patrik Andrade, Kadi, Xayme Romero (Marko Veşoviç, 46), Abdullah Zubir, İbrahima Vaci (Ramil Şeydayev, 73). **Baş məşqçi: Qurban Qurbanov.**

**"Bazel":** Hayns Lindner, Əray Comərd (Adrian Dürrer, 81), Andi Pelmar, Raul Petretta (Tomaş Tavareş, 81), Serxio Lopes (Mixael Lanq, 69), Darian Males, Paytim Kasami, Vouter Bürger (Taulant Şaka, 69), Dan Ndoye (Liam Millar, 58), Valentin Ştokker, Artur Kabral. **Baş məşqçi:** Patrik Rahmen.

**Qrupun digər oyunu:** ***"Kayrat" (Qazaxıstan) - "Omonia" (Kipr) 0:0.***

**2-ci tur**

**"Omonia" - "Qarabağ"**

**30 sentyabr.** Nikosia. GSP stadionu.

**Qrupun digər oyunu:** ***"Bazel" - "Kayrat"***

# Süleyman Bağır oğlu Məmmədli



***Azərbaycan idman ictimaiyyətinə ağır itki üz verib. Azərbaycan Hapkido Federasiyasının prezidenti, tanınmış idman mütəxəssisi, Süleyman Məmmədli sentyabrın 22-də, ömrünün 73-cü ilində vəfat edib.***

Süleyman Bağır oğlu Məmmədli 28 avqust 1948-ci ildə Tovuz rayonunda anadan olub. O, orta təhsilini Tovuzda, ali təhsilini isə Rusiyada alıb. Daha sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib.

1969-cu ildən Şərq döyüş növləri, xüsusilə karate ilə məşğul olmağa başlayıb. 1990-cı illərdən başlayaraq, taekvondo ilə məşğul olub. Müxtəlif beynəlxalq seminarlarda iştirak edib.

Bir çox döyüş növlərini Azərbaycana məhz o gətirib. Belə ki, Azərbaycanda taekvondonun, hapkidonun, uşununun, kikboksinqin, subakso tanqsudonun, çun kundonun, Tae Kuk Mu Sul-un, Cit Kun Do-nun, Donq Ku Yudo Kvanın və s. yaradıcısı olub. Chun Kuhn Do, Turan Do, Combat Mixed MA, Combat Chinese, Musul Taekwon Do, Combat Korea MA, Jeet Kune Do döyüş sənəti üzrə qrand-master olub. Tae Kuk Mu Sul, Universal Combat MA və Turan Do üzrə 10-cu dan qara kəmər ustası olub.

Süleyman Məmmədli vəfat edənədək Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "İdmanın təkmübarizlik növləri" kafedrasında dosent vəzifəsində çalışıb.

Süleyman Məmmədlinin əziz xatirəsi onu tanıyanların və idman ictimaiyyətinin qəlbində daim yaşayacaq.

Allah rəhmət eləsin!

***Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi***

# Bədii gimnastlarımız Monteneqroda 6 medal qazanıblar



Monteneqronun Budva şəhərində keçirilmiş bədii gimnastika üzrə "Wild Beauty Cup" adlı beynəlxalq turnirdə Azərbaycan komandası 6 medal qazanıb.

Yarışda fəxri kürsünün hər üç pilləsində yer alan Kamilla Seyidzadə komanda hesabına ən çox medal yazdıran gimnast olub. Belə ki, o, lentlə icra etdiyi çıxışı ilə bütün rəqiblərini üstələyərək qızıl medal qazanıb. Gürzlərlə gümüş, çoxnövçülük və halqa ilə yerinə yetirdiyi proqrama görə istedadlı gimnastımız bürünc medala sahib olub.

K.Seyidzadə daha bir bürünc medalı isə Alina Gözəlova ilə birlikdə komanda hesabında əldə edib. A.Gözəlova öz növbəsində topla nümayiş etdirdiyi çıxışına görə də bürünc mükafat əldə edib.

Yarışda iştirak edən digər təmsilçimiz Fəxriyyə Əliyeva ən yaxşı nəticəsini topla nümayiş etdirərək beşinci yerdə qərarlaşıb.

# Xüsusi olimpiyaçı qızlar və oğlanlar arasında silsilə tədbirlər keçirilib



***Şağan Olimpiya İdman Kompleksinin açıq meydançasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin dəstəyi və Xüsusi Olimpiya Komitəsinin təşkilatçılığı ilə xüsusi olimpiyaçı oğlan və qızlar arasında silsilə tədbirlər keçirilib.***

Bu tədbirlərdən "Avropa futbol həftəsi" turniri "UNIFIED Sports" proqramına uyğun olaraq 3 divizionda keçirilib. Yekun nəticələrə görə, qızların yarışında birinci yeri Xəzər rayonu 1 nömrəli Sosial Xidmət Müəssisəsinin komandası tutub. İkinci və üçüncü yerləri isə Sabunçu rayonu 170 nömrəli inklüziv sinifli tam orta məktəbin və Xəzər rayonu, E.Mirzəyev adına sağlamlıq imkanları məhdud uşaqlar üçün 6 nömrəli xüsusi internat məktəbinin futbolçuları tutublar.

Oğlanlar arasında yarışda isə Sabunçu rayonu 11 nömrəli inteqrasiya təlimli internat məktəbinin komandası birinci yeri tutub. İkinci yerə Xəzər rayonu valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2 nömrəli ümumi orta internat məktəbinin futbolçuları sahib olub. Üçüncü yerdə isə sərbəst məşqçi Lyudmila Qasıyevanın komandası qərarlaşıb.

Ümumdünya Sülh Gününə həsr olunmuş futbol yarışı isə oğlanlar arasında təşkil edilib.

Yekun nəticələrə görə, turnirdə birinci yeri məşqçi-müəllim Lyudmila Qasıyevanın komandası tutub. İkinci yerə Nizami rayonu 3 nömrəli xüsusi təhsil məktəbinin komandası layiq görülüb. Üçüncü pillədə isə Bakı şəhəri 11 nömrəli xüsusi təhsil məktəbinin futbolçuları qərarlaşıblar.

Daha bir turnir isə Yunis Kennedy-Şrayver Gününə həsr edilib. Qızların iştirak etdiyi yarışda ən güclü divizionda birinci yeri Sabunçu rayonu 309 nömrəli inklüziv sinifli tam orta məktəbin komandası tutub. İkinci yerə Xəzər rayonu 1 nömrəli Sosial Xidmət Müəssisəsinin, üçüncü pilləyə isə Sabunçu rayonu 170 nömrəli inklüziv sinifli tam orta məktəbin komandaları layiq görülüblər.

Qeyd edək ki, xüsusi Olimpiya hərəkatının əsası ABŞ Prezidenti Con Kennedinin bacısı Yunis Kennedi Şrayver tərəfindən qoyulub. O, fiziki və əqli qüsurlu insanların cəmiyyətə inteqrasiyası və onların bacarıqlarının inkişafı sahəsindəki xidmətlərinə görə 1984-cü ildə ABŞ Prezidenti tərəfindən "Azadlıq" medalı ilə təltif olunub.

# Gələn il ağırlıqqaldırma üzrə Avropa çempionatı Bolqarıstanda keçiriləcək

***Bolqarıstanın paytaxtı Sofiya 2022-ci ildə keçiriləcək ağırlıqqaldırma üzrə Avropa çempionatına ev sahibliyi edəcək.***

Bu sözləri Avropa Ağırlıqqaldırma Federasiyasının prezidenti vəzifəsini icra edən Maksim Aqapitov bildirib.

O, qeyd edib ki, qitə çempionatının aprel ayında Sofiyada keçirilməsi planlaşdırılır. Yarışın dəqiq tarixi daha sonra müəyyənləşəcək.

Qeyd edək ki, sonuncu dəfə Sofiya bu turnirə 2005-ci ildə ev sahibliyi edib. Ümumilikdə isə Bolqarıstanın paytaxtında artıq beş dəfə Avropa çempionatı və bir dəfə dünya çempionatı (1986-cı ildə) keçirilib.



Turdan-tura

# Qapıçı, tir və bəxt, bir də davam edən ikihakimiyyətlilik



***Milli futbol çempionatının Premyer liqasında ikihakimiyyətlilik davam edir. Ötən tur gözlənilmədən "Qarabağ" mütləq autsayderə çevrilmiş "Keşlə" ilə bacarmadı. Oyuna nəzər salmadan, elə düşünmək olar ki, vacib qitə matçı ərəfəsində Ağdam klubu risk etmədən oyunu sakit tərzdə başa vurub.***

Əslində isə meydanda bir "Qarabağ" var idi, bir qapıçı Namaşko, bir tir, bir də epizodları xərcləyən "Qarabağ"lılar. Əlbəttə, bütün bunları cəmləsək, bəxt rəqib tərəfində idi. Çünki "Qarabağ"da haradasa arxayınlıq da hiss olunurdu. Əslində, oyunun ipini əlində saxlayan komanda üçün qarşılaşmanın nəticəsi elə futbol qanunauyğunlarına görə oldu: vurmayana vurdular. Müdafiənin arxasına ötürmə ilə təkbətək çıxan "Keşlə"li hesabı bərabərləşdirib, nəticədə də məlum olduğu kimi, 5-ci turda komandasına ilk xalı bəxş etdi. Bununla da, mövsümdə xal qazanmayan komanda qalmadı.

Buna qədər "Sabah" da ilk xalını mövsümün Avrokubok iddialısından biri olan "Zirə"ni məyus etmişdi. Əlbəttə, söhbətə autsayderlərdən başlamışıqsa, sadəcə, onu deyək ki, bu iki komanda artıq dönüşə nail olmaq üçün hər bir əsasa malikdir. Əslində, "Sabah" ikinci xalını da qazana bilərdi. Lakin son dəqiqələrdə qol vurmaqdan başqa çarəsi olmayan Bəxtiyar Həsənalızadə 2-3 metrdən topu qapı üzərindən aşırdı. Ədalət naminə "Neftçi" də böyükhesablı məğlubiyyətə nail ola bilərdi. Lakin ümumən komandanın arxa xətdə faciəli oyunu, natamam heyət və oyun quruculuğu sözünü deyir. Əgər bir balaca təpərli rəqiblər olsa, bu komandanın nəinki liderliyə, hətta ilk üçlüyə favoritliyi də şübhə doğurar. Əfsus ki, buna hazırlıqlı olmaq üçün "Zirə"də də çatışmayan çox cəhət var, "Sumqayıt" isə barıtının çoxatımlıq olmadığını bir daha sübut edir. "Zirə"nin hələ formalaşmaq üçün konkret oyun, oyunçu, transfer planı olmadığı aydındır. Komanda xüsusən transferlərdə hələ də formalaşmış ənənəvi ehkamlara son qoymayıb. Özünün konkret sistemli axtarış mexanizmləri yoxdur. Doğrudur, bu digər klublarda da çatışmayan cəhətdir. Bu səbəbdən çox da dərindən təhlillər aparmaq olmur.

Əlbəttə, mövsümün sürprizi "Qəbələ" yaddan çıxmayıb. Komanda xalları ard-arda düzdükcə, özünü toparlaması üçün fürsəti davam edəcək. İkihakimiyyətliliyin səbəbkarı olan kollektiv əsl komanda oyunu ilə seçilməklə hətta ən güclü rəqiblərinə belə dərs verir. Əlbəttə, bu klubun imkanlarına yaxından bələd olmasaydıq, yəqin "Sumqayıt"la oyuna görə tənqidə yol verməк olardı. Üstəlik, elə ötənilki mövsümə nəzər salsaq, komandanın cürətli rəqabət apardığı vaxtlarda aldığı məğlubiyyətlərlə də müqayisə apara bilərik. İndiki xallar "Qəbələ"nin minimal imkanlar həddində daha möhkəm kollektivə çüvrilməsinə şərait yaradır. Bu səbəbdən komandanın sürprizlərinin davmalı olması gələcək rəqabətə də kifayər qədər təsirli olacaq.

Hər halda tezliklə başlanacaq, növbəti "milli fasilə"-dən sonra ilk böyük hesabatlara başlamaq mümkün olacaq. O vaxta elə birinci dövrə də bitmək üzrə olacaq.

***BATI YAR***

**Futbol. Azərbaycan çempionatı. Premyer Liqa**

**4-cü tur**

***18 sentyabr (şənbə)***

**"Qəbələ" - "Səbail" (Bakı) 5:0** (Rövlan Muradov, 65, Ülvi İsgəndərov, 84, Ehtiram Şahverdiyev, 89, Rafael Utziq, 90+1, İsnik Alimi, 90+5).

**"Zirə" (Bakı) - "Sabah" (Bakı) 1:1** (Məhəmməd Həmdaui, 49//Şpiro Periçiç, 83).

***19 sentyabr (bazar)***

**"Neftçi" (Bakı) - "Keşlə" (Bakı) 3:0** (Sezar Meza Kolli, 36, Ramon Maçado, 50, İsmayıl Zülfüqarlı, 68).

***20 sentyabr (bazar ertəsi)***

**"Qarabağ" (Ağdam) - "Sumqayıt" 2:0** (Filip Ozobiç, 42-pen., 90+5).

**5-ci tur**

***25 sentyabr (şənbə)***

**"Keşlə" - "Qarabağ" 1:1** (Aldair Netu, 72//Abdullah Zubir, 20).

**"Səbail" - "Zirə" 1:2** (Yurgen Qoxa, 45//Davit Volkov, 17, 40).

***26 sentyabr (bazar)***

**"Sabah" - "Neftçi" 1:2** (Aleksey İsayev, 81//Ramon Maçadu, 21, Mamadu Kane, 77).

**"Sumqayıt" - "Qəbələ" 0:0.**

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. "Qəbələ" | 5 | 3 | 2 | 0 | 11-3 | 11 |
| 2. "Qarabağ" | 5 | 3 | 2 | 0 | 9-3 | 11 |
| 3. "Neftçi" | 5 | 3 | 1 | 1 | 10-6 | 10 |
| 4. "Zirə" | 5 | 2 | 2 | 1 | 7-5 | 8 |
| 5. "Sumqayıt" | 5 | 2 | 1 | 2 | 4-3 | 7 |
| 6. "Səbail" | 5 | 2 | 0 | 3 | 3-10 | 6 |
| 7. "Sabah" | 5 | 0 | 1 | 4 | 2-8 | 1 |
| 8. "Keşlə" | 5 | 0 | 1 | 4 | 2-10 | 1 |

**Bombardir: 5 -** Davit Volkov ("Zirə").

# Yeniyetmə və gənclərin dünya çempionatından 4 medal



***Rumıniyanın Konstanta şəhərində çimərlik güləşi üzrə yeniyetmə və gənclərin dünya çempionatı keçirilib.***

Yeniyetmələr arasında dünya çempionatında ölkəmizi baş məşqçi Oyan Nəzəriani və məşqçi Ağahüseyn Mustafayevin rəhbərliyi altında 2 güləşçi təmsil edib və onların hər ikisi fəxri kürsüyə qalxıb.

Təmsilçimiz Musa Ağayev (60 kq) ilk görüşdə macar rəqibini məğlub edib. Türkiyə güləşçisi ilə mübarizədə hesab açılmayıb. Rəqibin çəkisi daha az olduğu üçün qələbə ona verilib. Ancaq üçüncü qarşılaşmada Rumıniya idmançısına heç bir şans tanımayan M.Ağayev adını yarımfinala yazdırıb. Bu mərhələdə Rumıniyadan olan daha bir rəqibini məyus edən idmançımız həlledici görüşdə türkiyəli güləşçiyə uduzaraq gümüş medalı boynundan asıb.

Çempionatda 70 kiloqram çəki dərəcəsində çıxış edən Hüseyn Əliyev startda Yunanıstan təmsilçisinə gücünü göstərib. Həmyerlimiz Rumıniya güləşçisini minimal fərqlə üstələdikdən sonra Yunanıstanın daha bir idmançısına qalib gələrək yarımfinala vəsiqə qazanıb. Moldovadan olan rəqibinə də aman verməyən H.Əliyev finalda rumıniyalı idmançıya eyni aqibəti yaşadaraq dünya çempionu olub.

Qeyd edək ki, millimiz 1 qızıl və 1 gümüş medalla komanda hesabında dünya üçüncüsü olub.

Gənclərin dünya çempionatında da komandamızı iki güləşçi təmsil edib.

Təmsilçimiz Rübail İbrahimli (70 kq) startda yerli güləşçini çətinliklə üstələyib. Daha sonra Ukrayna güləşçisinə məğlub olan həmyerlimiz Moldova idmançısına qalib gələrək yarımfinala yüksəlib. Yarımfinalda daha bir Moldova təmsilçisi üzərində qələbə qazanan R.İbrahimli adını finala yazdırıb. Ancaq R.İbrahimli həlledici görüşdə ukraynalı rəqibinə məğlub olaraq gümüş medalla kifayətlənib.

Təsnifat mərhələsindən mübarizəyə başlayan Fərid Cabbarov (80 kq) əvvəlcə rumıniyalı rəqibindən güclü olub. Rumıniyadan olan daha bir güləşçini vaxtından əvvəl məyus edən F.Cabbarov Ukraynanın iki pəhləvanını da xal vermədən məğlub edib və yarımfinala vəsiqə qazanıb. Yarımfinalda da Rumıniya idmançısına qalib gələn təmsilçimiz finala yüksəlib. Həlledici görüşdə Ukrayna güləşçisinə heç bir şans tanımayan F.Cabbarov dünya çempionu olub.

# Beynəlxalq tennis turnirində təmsilçimiz uğurla çıxış edib

***Azərbaycan Tennis Federasiyasının təşkilatçılığı ilə Bakı Tennis Akademiyasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan beynəlxalq turnir keçirilib.***



Hər il ənənəvi olaraq təşkil edilən yarışda bu dəfə 17 ölkənin 18 yaşlı idmançıları mübarizə aparıblar. Yerli tennisçilərlə yanaşı, turnirdə Türkiyə, Rusiya, ABŞ, Almaniya, Ukrayna, Belarus, Qazaxıstan, Rumıniya və digər ölkələrdən olan idmançılar da çıxış ediblər. Turnirdə ümumilikdə 28 oğlan və 24 qız tennisçi yarışıb.

Təmsilçimiz Tamerlan Əzizov inamlı oyunu ilə diqqət çəkib. O, finalda rusiyalı Qriqori Şebekinə qalib gələrək çempion olub.

Azərbaycan Tennis Federasiyasının birinci vitse-prezidenti Salam Əsgərzadə mükafatlandırma mərasimində idmançıları təbrik edib və qarşıdakı yarışda onlara uğurlar arzulayıb: "Federasiya olaraq tennis idman növünün təbliği üçün mütəmadi olaraq addımlar atırıq. Artıq Bakı Tennis Akademiyasında növbəti beynəlxalq yarışı təşkil etdik. Dünyanın müxtəlif ölkələrindən tennisçilər paytaxtımıza gəldi. Bir daha sübut etdik ki, biz hər zaman beynəlxalq yarışlar təşkil etməyə hazırıq. Qalib və mükafatçıları təbrik edir, onlara uğurlar arzulayıram".

# Boksçularımızdan iki medal

***Rusiyanın Krasnodar şəhərində gənc boksçular arasında Nikolay Pavlyukovun xatirəsinə həsr olunan beynəlxalq turnir keçirilib.***

15 ölkədən 146 idmançının qatıldığı yarışda Azərbaycan yığması 4 boksçu ilə təmsil olunub.

Baş məşqçi Əsgər Eyvazovun rəhbərliyi etdiyi komanda çıxışını 2 bürünc medalla başa vurub. Boksçularımızdan Nicat Hüseynov (51 kq) və Fətəli İsmayılov (86 kq) üçüncü yeri tutublar. Fətəli İsmayılov və Tural Sarıyev (48 kq) göstərdikləri döyüşə görə turnirin xüsusi kuboku ilə də mükafatlandırılıblar.

Qeyd edək ki, yarış Monteneqronun Budva şəhərində keçiriləcək Avropa çempionatına hazırlıq xarakteri daşıyıb.

# Boksçumuz MMA üzrə Qran-Pri yarışında ilk kəmərə sahib olub

***ASED Fighting Championsip (AFC ASED) təşkilatının keçirdiyi 12 peşəkar seriyadan ibarət MMA üzrə Qran-Pri yarışında ilk kəmərin sahibi müəyyənləşib.***

Turnirdə 62 kiloqram çəki dərəcəsində çıxış edən Fərhad Zamanov keçirdiyi 5 döyüşdə qələbə qazanmaqla kəmərə yiyələnib.

F.Zamanov Kənan Şamilli, Elgün Həmzəyev, Maqomed Tatariev (Rusiya), Əlicabbar Nuriyev və Ceyhun Qocalını məğlub edərək bu uğura imza atıb. İdmançı bütün görüşlərini vaxtından əvvəl qələbə ilə tamamlayıb.

F.Zamanovun AFC ASED də uğurlu çıxışı dünya promouterlərinin də diqqətindən yayınmayıb. Belə ki, Polşanın STT təşkilatı döyüşçü ilə müqavilə imzalayıb. F.Zamanov Polşada həm Azərbaycanı, həm də AFC ASED-i təmsil edir.

Qeyd edək ki, 2018-ci ildən fəaliyyətə başlayan AFC ASED-ın təşkilatçılığı ilə üç kateqoriya üzrə yarışlar keçirilir.

# Fuad Tarverdi peşəkar rinqdə daha bir qələbə qazanıb

***İstanbulda Türkiyə Gənclər və İdman Nazirliyi, Türkiyə Boks Federasiyası və "Kadıköy" Peşəkar Boks Klubu tərəfindən turnir keçirilib.***

20-yə yaxın ölkədən idmançıların qatıldığı turnirdə Azərbaycanı peşəkar boksçumuz, "The Flash" ləqəbli Fuad Tarverdi təmsil edib. Türkmənistanlı rəqibi Ramazan Bazarovu birinci raundun 45-ci saniyəsində nokaut edən boksçumuz növbəti qələbəsini qazanıb.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi, Azərbaycan Peşəkar Boks Federasiyası, "VKB" (Victory For Karabakh) şirkəti və "Bizon Energy"nin dəstəyi ilə yarışa qatılan idmançımız "Qızıl əlcək" idman klubunun təmsilçisi və Əməkdar məşqçi Rəhim Allahverdiyevin yetirməsidir.

# İDMAN

№ 20 (7115) 28 sentyabr 2021


## Güləşçilərimiz Dünya Seriyasını uğurla başa vurublar

***Sentyabrın 25-26-da Rumıniyanın Konstanta şəhərində çimərlik güləşi üzrə Dünya Seriyasının final mərhələsi keçirilib.***

Yarışda ölkəmizi üç güləşçi təmsil edib və onların üçü də fəxri kürsüyə qalxıb.

Omid Kamaliağdam C qrupunda Rumıniyanın 2 güləşçisinə qalib gəldikdən sonra Portuqaliya idmançısını üstələyərək yarımfinala yüksəlib. Finalın bir addımlığında Ukrayna təmsilçisinə məğlub olan Omid Rumıniyadan olan rəqibinə növbəti dəfə qalib gələrək Dünya Seriyasının sonuncu - 4-cü mərhələsini bürünc medalla başa vurub.



İbrahim Yusubov təsnifatda yunan güləşçini mübarizədən kənarlaşdıraraq qrup mərhələsinə yüksəlib. Yunanıstanın daha bir təmsilçisinə qalib gəldikdən sonra Pakistan idmançısına uduzan Yusubov Ukrayna pəhləvanından güclü olmaqla yarımfinala vəsiqə qazanıb. Türkiyəli rəqibinə xal verməyən İbrahim həlledici görüşdə gürcü həmkarını məyus edərək qızıl medala sahib çıxıb.

A qrupunda mübarizəyə start verən Oyan Nəzəriani Yunanıstanın 2 güləşçisiylə yanaşı, İtaliya idmançısına heç bir şans saxlamayıb. Yarımfinalda Rumıniya təmsilçisinə gücünü göstərən Oyan finalda Gürcüstan pəhləvanını da məğlub edərək turnirin baş mükafatına yiyələnib. Nəzəriani həm də yarışın ən yaxşı fəndini edən güləşçi kimi xüsusi mükafata sahib çıxıb.

Beləliklə, iyulda Fransada startı verilən və 4 mərhələdən ibarət olan çimərlik güləşi üzrə Dünya Seriyasına Rumıniyada yekun vurulub. Bu mərhələlərdə toplanan xallara əsasən dünya çempionları müəyyənləşib. İbrahim Yusubov (90 kq) və Oyan Nəzəriani (+90 kq) dünya ikincisi olub. Onu da nəzərinizə çatdıraq ki, bu 2 güləşçi ilk mərhələdə iştirak etməmişdi.

## Hərbçilər arasında güləş üzrə dünya çempionatında təmsilçilərimiz uğurla çıxış ediblər

***Litvanın Klaypeda şəhərində hərbçilər arasında güləş üzrə 32-ci dünya çempionatı keçirilib.***

İlk yarış günündə sərbəst güləşçilərimiz Əfqan Xaşalov (57 kq), Qalib Əliyev (61 kq), Ağahüseyn Mustafayev (65 kq), Coşqun Əzimov (70 kq) və qadın güləşçilərimizdən Türkan Nəsirova (48 kq) Tatyana Varantsova (53 kq) xalça üzərinə çıxıblar.

Yığmamızın üzvləri yarış gününü 1 qızıl, 1 gümüş, 3 bürünc medalla başa vurub.

Qızıl medalı yığmamıza Qalib Əliyev (61 kq) qazandırıb. Sərbəst güləşçimiz finalda amerikalı Rayn Menqlanı 8:4 hesabı ilə məğlub edərək dünya çempionu olub.

Yığmamızın üzvü Əfqan Xaşalov (57 kq) Rumıniya güləşçisi Dukuk Andreyi 8:1 hesabı ilə məğlub edərək bürünc medala layiq görülüb.

Ağahüseyn Mustafayev (65 kq) həlledici görüşdə iranlı Mehran Nasirini 4:3 hesabı ilə məğlub edərək bürünc medal qazanıb. Coşqun Əzimov (70 kq) da bürünc medal qazanıb. Həlledici görüşdə o, polşalı Mateus Pisariskini 11:5 hesabı ilə məğlub edib.

Qadın güləşçilərimizdən Türkan Nəsirova (48 kq) isə finalda uduzaraq gümüş medalla kifayətlənib.

İkinci yarış günündə güləşçilərimiz 1 bürünc medal qazanıblar. Belə ki, 86 kq-da mübarizə aparan Əşrəf Əliyev həlledici görüşdə Çin idmançısı Bahetihan Huvatibiekeni 5:1 hesabı ilə məğlub edərək bürünc medala yiyələnib.

Bununla da dünya çempionatının sərbəst və qadın güləşi yarışları başa çatıb. Sərbəst güləşçilərimiz ümumilikdə 1 qızıl və 4 bürünc medala sahib olub. İki idmançı ilə təmsil olunan qadın güləşi yığmamız isə çempionatı 1 gümüş medalla başa vurub.

Komanda hesabında sərbəst güləşçilərimiz Rusiya və İran yığmalarından sonra üçüncü yerdə qərarlaşıb.

## Nağı Səfərov Avropa Taekvondo Birliyinin İdarə Heyətinə üzv seçilib

***Azərbaycan Taekvondo Federasiyasının (ATF) vitse-prezidenti Nağı Səfərova növbəti dəfə etimad göstərilib. Azərbaycan təmsilçisi, yenidən Avropa Taekvondo Birliyinin (ATB) İdarə Heyətinə üzv seçilib.***

İstanbulda baş tutan ATB-in növbəti Baş Assambleyasında qurumun prezidenti, vitse-prezidentləri və İdarə Heyəti yenidən seçilib. Qeyd edək ki, İdarə Heyətinin üzvü 14 nəfərdən ibarət olur.

Assambleyanın yekununa əsasən, növbəti dörd il Sakis Praqalos ATB-in prezidenti vəzifəsində fəaliyyətini davam etdirəcək. Antonino Barbarino isə baş katib vəzifəsinə təyin olunub.

## Luis Hamilton karyerasında 100-cü qələbəsini qazanıb

***Sentyabrın 26-da Formula 1 Rusiya Qran-Prisinin qalibi müəyyənləşib.***

Soçi avtodromunda təşkil olunan mövsümün 15-ci yarışında "Mercedes"in pilotu Luis Hamilton birinci olub. İlk üçlüyü "Red Bull Racing"in pilotu Maks Ferstappen və "Ferrari"nin üzvü Karlos Sayns tamamlayıblar.

L.Hamilton Soçidə beşinci, karyerasında isə 100-cü qələbəsini qazanıb.

Pilotların siyahısına 246,5 xalla L.Hamilton başçılıq edir. M.Ferstappen 244,5 xalla ikinci, Valtteri Bottas ("Mercedes") isə 151 xalla üçüncü pillədə yer alıb.

Konstruktorlar kubokunda "Mercedes" 397,5 xalla birincidir. Hesabında 364,5 xal olan "Red Bull Racing" ikinci, "McLaren" isə 234 xalla üçüncü yerdə qərarlaşıb.



## Gimnastımız Macarıstanda qızıl medal qazanıb



***Kişi idman gimnastikası üzrə Azərbaycan yığmasının üzvü Nikita Simonov Macarıstanda qızıl medal qazanıb.***

Sombatxey şəhərində təşkil edilmiş Qran-Pri yarışlarının final mərhələsində N.Simonov halqalar üzərində hərəkətlərdə hakimlərdən 14,500 xal alaraq, fəxri kürsünün ilk pilləsinə yüksəlib. İlk üçlükdə Avstriya və İsrail gimnastları qərarlaşıblar.

## Akrobatika gimnastlarımız Avropa Yaş Qrupları Yarışlarında ikinci olublar

***Akrobatika gimnastikası üzrə Azərbaycan yığmasının üzvləri İtaliyanın Pesaro şəhərində təşkil edilmiş Avropa Yaş Qrupları Yarışlarında uğurla çıxış ediblər.***

12-19 yaşlı idmançılar arasında mübarizə aparmış Milana Əliyeva və Nizam Xamidulindən ibarət qarışıq cütlüyümüz final mərhələsinə adlamağı bacarıblar. Həlledici mərhələdə isə qarışıq hərəkətlər proqramı üzrə nümayiş etdirdikləri kompozisiyalarına görə perspektivli gimnastlarımız 27,200 xal toplayaraq gümüş medal qazanıblar.

## Şahmat kompozisiyalarının tərtibi üzrə dünya kubokunda bürünc medal

***FIDE-nin təşkil etdiyi şahmat kompozisiyalarının tərtibi üzrə 9-cu dünya kuboku yarışları keçirilib. Səkkiz bölmə üzrə keçirilən turnirdə 192 şahmatçı mübarizə aparıb.***

İyirmi ölkədən olan 65 şahmatçının iştirak etdiyi yardımmat bölməsində (dünya kuboku yarışının ən çox iştirakçısı olan bölmə) Azərbaycan təmsilçisi Kənan Vəlixanov iştirak edib. Şahmatçımız yarışda bürünc medal qazanıb.

Xatırladaq ki, K.Vəlixanov 2013-cü, 2017-ci və 2018-ci illərdə analoji yarışın qalibi olub.

## Azərbaycanlı hakim beynəlxalq turnirdə ən yaxşılar arasında yer alıb



İstanbulda keçirilən taekvondo üzrə "President Cup" beynəlxalq turniri başa çatıb. Azərbaycan Taekvondo Federasiyasının baş hakimi, beynəlxalq dərəcəli hakim Gündüz Abdullayev, Ramal Camalov və Aygül Abdullayevanın da hakim qismində qatıldığı yarışda hakimlərimiz mükafatsız qalmayıb.

Yarışda ölkəmizi təmsil edən qadın hakimimiz Aygün Abdullayeva qarşılaşmaları idarə edən hakimlərdən altı "ən yaxşı hakim" arasında yer alıb.

## Qısa-qısa

Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin köməkçi məşqçisi Emin Əbilov karyerasını Türkiyədə davam etdirəcək. O, 2021/2022-ci il mövsümündə Sultanlar Liqasında mübarizə aparacaq "Sarıyer Belediyespor" klubu ilə birillik müqavilə imzalayıb. E.Əbilov sözügedən komandada da analoji vəzifəni tutacaq.

21 yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının seçmə mərhələsi çərçivəsində Azərbaycan yığmasının keçirəcəyi oyunların başlama vaxtı məlum olub. Noyabrın 12-də Avstriya, dörd gün sonra Norveç komandası ilə "Bakcell Arena"da keçiriləcək oyunlar saat 20:00-da başlayacaq.


Qəzetin təsisçisi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyidir

Baş redaktor: Qabil MEHDİYEV

Ünvan: AZ-1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, III mərtəbə. Telefon: faks: 510-53-10,
Web: www.azsport.az;
E-mail: idman@mys.az; Lisenziya: B235
Bank rekvizitlərimiz: h/h-AZ69AIIB33080019443300230103,
VÖEN: 1300432691, "Kapitalbank"ın Yasamal filialı, kod-200037,
VÖEN: 9900003611, Müxbir hesab: AZ37NABZ01350100000000001944

"İdman"ın kompüter mərkəzində yığılıb-səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Tiraj: 1000 Sifariş: 1842
Qəzet hər həftənin çərşənbə axşamı günü çıxır.
Redaksiyaya daxil olan yazılar şərh edilmir və geri qaytarılmır.